# Folklor xalq həyatının əks-sədasıdır

Güney mahalında uşaq şeirləri zaman-zaman yaranıb və bu gün də yaranmaqdadır. Şair-araşdırmaçı A.Ağkəmərlinin Xamnə mahalının ağsaqqalı Əbdülkərim Mənzurinin dilindən qələmə aldığı uşaq şeiri nümunələrinin də oxucular üçün maraqlı olacağını düşündük:

### Top

Bir topum var qırmızı,
Gəl oynuyaq əmi qızı,
Şəhərlərin içində
Çox sevərəm Təbrizi.
Sənin insafın olsa
Yalqız qoymazsan bizi...
Mənim topum yox idi,
Dərsə şöqüm çox idi.
Dərsimə yaxşı baxdım,
Məşqimi yaxşı yazdım.

### "Ay qaraqaş"

Dostlarım gəldi çatdı,
Gəl oynayaq "ip atdı".
Sarı telli gözəl qız,
Sənə qurban olax, biz...

Ay qaraqaş göz oğlan,
Dolan bir az düz oğlan.
Elnaz, Səidə, Solmaz,
Oynamaxdan yorulmaz...

Sevərəm mən Lalanı,
Doldur ver piyalanı.
İstərəm gedim gəzim
Təbrizi, Marağanı...

Aydındır ki, "Top" şeiri son çağların yaradıcılıq məhsuludur və burada müəllimlərin şagirdlərinin gələcək həyatında, onların cəmiyyətə faydalı bir insan, şəxsiyyət kimi yetişmələrində nə qədər önəmli rol oynadığı qabardılır.

İnanc şeirlərinin də Güney folklorunda özünəxas yeri var. Belə şeirləri körpə uşaqlar oxuyurlar. Çünki güneyli bacı-qardaşlarımız inanarlar ki, Tanrının yaratdığı ən saf, tərtəmiz dünyası olan uşaqların, uşağın dilədiyi arzu yerinə yetirilər. Xərmən yelini əsdirmək üçün xərməndə uşaqlar gəzə-gəzə oxuyarlar:

*Heydər-Heydər, gəl atına*
*saman apar,*
*Qanadıva qurban olum,*
*gəl atıva saman apar,*
*Heydər-Heydər...*

Kiçikyaşlı uşağın süddişləri düşəndə o dişi dama atar və ondan böyükyaşlı uşaqlar xorla oxuyarlar:

*Qarqa-qarqa,*
*mənə diş gəti gəl*
*İçində kişmiş gəti gəl*
*Qarqa-qarqa,*
*diş gəti gəl...*

Yaxud uşaqlar bir şey itirəndə itən şeyi axtara-axtara oxuyarlar:

*Tapıl-tapıl pulun verim,*
*Tapılmasan çulun verim.*

**Danlaq** da Güney folkloru nümunələri sırasındadır. Töhmət, məzəmmət, tənə anlamında işlədilən danlaq ifadələri, əslində, insanlara "işini yaxşı gör, danlaq eşitmə" ismarıcıdır. Valideynlərin övladlarının gördüyü yanlış işlər, atdığı səhv addımlarla bağlı bir növ öyüd, nəsihət, giley-güzar, həm də bir can yanğısı yüklü danlaqlarında həm də gizli sevgi, məhəbbət duyulur. Xalq şairi Bəxtiyar Vahabzadə *"Ana məzəmməti, ata danlağı, Ancaq məhəbbətdir, ancaq məhəbbət"* misralarında da məhz bu məqamı vurğulayır.

Allah dağına görə qar verər. Allah səni tanımış.

Allahın da, bəndənin də nəzərindən düşübsən. Gör hələ başına nələr gələcək!

Xanımın yanında yekə-yekə danışma!

Səndən alçağı kimdir?

Get tay-tuşun tap, bundan adam olmaz.

Sağ əlim sənin təpənə! Sən qırıbsan!

Səndə də ki, utanmaq yox!

Üz deyil, ayaq daşıdır!

Get atılmağının dalınca!

Qaç get, gedə! Get sabah gəl! Qanımı qaraltma!

Oyun çıxarma, gedə! Eşşəyini sür görək!

A.Ağkəmərlinin Güney mahalının Şəbüstər, İskəmər, Əlişah və b. bölgələrindən topladığı ağız ədəbiyyatı örnəklərinin yer aldığı "Güney Azərbaycan folkloru" kitabında "Ürək yandırmalar" adı ilə verdiyi söz birləşmələri də anaların, nənələrin əzizlərinə can yanğısı ilə söylədikləri ifadələrdir: Nənən ölsün, bala! Dərdin alım! Ağrın alım; Yazıqcığaz! Benava! Biçara! Nə korluq çəkdi balam! Haqqı necə itdi! Yazıq canıva qurban! Ax, heyvan bala! Balamın əməyi zal oldu! Yazıq heç bir dünyanın ləzzətini bilmədi! Aman fələk! Ay vəfasız dünya! Calalıva şükür! Evin yıxılsın, fələk!

Güney folklorunda qorxuducu, hədə-qorxu ifadə edən sözlər də ayrıca olaraq təqdim edilir: Danışsan, dilini kəsərəm! Dəryaya susuz aparıb, susuz gətirrəm! Evinə od vurram! Dilini yandırram! Görərsən, tələsmə, çörəyini kəsərəm, döz! Gözünü çıxardaram! Vallah, enin, boyun bir elərəm! Qulaqların divara mıxlaram! Dilini kəsərəm! Diri-diri udaram! Get əlindən gələni əsirgəmə! Gedə, mənim çörəyim sənin əlindədir?! Məgər mənim çörəyim sənnən çıxır?! Get hansı böyükdür, çal başına!

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**

Respublika .- 2023.- 29 mart.- S.9.